

Tofiq Nurəli

### PAYIZ GECƏSİNDƏ

Payızın aydınlıq gecələrində
Bir az gurlaşanda çayların səsi
Qəlbimin əlçatmaz guşələrində
Antik arzulara dəyir nəfəsim.

Payızın aydınlıq gecələrinin
İnsanı titrədən xatası da var.
Yadıma düşür ki, mənim qəlbimdə
Ömrümün bir qara qutusu da var.

Məni ayaq üstə saxlayır hələ,
Ötüb keçən ömrüm dönüb dayağa.
Hərdən o qutudan həzin səs gəlir:
Günah içindəsən başdan-ayağa.

Payız gecəsində parıldayır ay,
Cadugər əlində qızıl cam kimi.
Mənim göz yaşlarım ay işığında
Köhnə məzar üstə təzə şam kimi.

Mən ayrı bir tale yaşadım, amma,
Ayrı bir taleyi sevdi ürəyim.
Birdən ayıldım ki, ey dadı-bidad
Həyətin ot basmış evdi ürəyim.

Payızın aydınlıq gecələrində
Bir az gurlaşanda çayların səsi,
Qəlbimin əlçatmaz guşələrində
Antik arzulara dəyir nəfəsim.

### HEÇ İNANMIRAM

Tənhalıq içindən, təklik içindən
İntizar içindən, boşluq içindən
İşıqsız, nəfəssiz, odsuz-ocaqsız
Hənirsiz, buz sükut-daşlıq içindən
Görən necə çıxdı evimiz yaza?!

O nələr keçirdi çərşənbələrdə?!
Əydi hansı daşın qəm-qubar yükü?!
O həyat tonqalsız, o damlar şamsız...
Onu boğmadı ki, bu soyuq bürkü?!
Görən necə çıxdı evimiz yaza?!

Anamın əllərin yada saldımı,
Yadına saldımı atamın səsin...
Nələr çəkdi görən anamın ruhu -
Günahkar bilməyib yenə heç kəsi?!
Görən necə çıxdı evimiz yaza?!

Qışın zil qaranlıq kar gecələri
Boynun qatlatmasın, inanmıram heç.
Qonşu həyətlərin Novruz tonqalı
Bağrın partlatmasın... inanmıram heç.
Görən necə çıxdı evimiz yaza?!

Heç yaza çıxdımı, heç inanmıram...
Kim dözər bu qədər biganəliyə...
Yəqin küsüb getdi o evin ruhu,
Ya da ki, qoşuldu divanəliyə...
Quruca daş-divar ev deyil hələ,
İçində heç kimin ruhu yoxdusa,
İçində bir çimir yuxu yoxdusa,
Onu yada salan ağrı yoxdusa,
Onu yada salan oğul yoxdusa,
Quruca daş-divar ev deyil hələ...

Ey ata ocağım, ey ana evim
Sənə ata deyim, lap ana deyim?!
O necə oğuldu, deməzmi bir yol
Gedim bir atama-anama dəyim?
Mən deyə bilmədim, dəyə bilmədim
Heç bir gərək də yox min bəhanəyə.
Yəqin atam kimi, eh anam kimi
O evin ruhu da incidi məndən,
Daha heç birisi yuxuma gəlmir...
Daha heç birisi yaxına gəlmir.
Mən çıxıb getmişdim-qayıtmaq üçün...
Talehim döndərdi axan ulduza...
...Üzümə də yoxdu ki, soruşub bu gün
Görən neçə çıxdı evimiz yaza?!

### BƏXT QAPISI

Qıfılını Tanrı vurub
Çaşıb, ya tanıyıb vurub?
Yoxsa sərsəm yaman vurub?
Kim vurubsa, halal olsun,
Kim vurubsa, yaman vurub -
Açılmadı bəxt qapısı

Axşam-sabah çırpıb getdim,
Gah döydüm, gah çırpıb getdim.
Çağırdım Tanrım gizləndi -
Ona bir ah çırpıb getdim,
Açılmadı bəxt qapısı.

### ÇİLİK-ÇİLİK, ÇİÇƏK-ÇİÇƏK

Günlərin bir günü
Büllur qab kimi
Dostlar düşdü əlimdən
Çilik-çilik oldular...
Dostlar düşdü əlimdən,
İllərlə dediyimiz
Tostlar düşdü əlimdən,
Sözlər düşdü əlimdən.
Ürəyimə ən yaxın
Səslər düşdü əlimdən
Çilik-çilik oldular...
İllərlə söykəndiyim
İnam düşdü əlimdən.
Bu boyda var-dövlətim
Tamam düşdü əlimdən...
Onlarla qüdrətliydim,
Güclüydüm, qüvvətliydim.
Gücüm, qüdrətim düşdü,
Mehrim, duyğum, vərdişim
Tərgidə bilmədiyim
Sevmək adətim düşdü -
Yaman düşdü əlimdən
Çilik-çilik oldular...
Çətinlik qəfil oldu
Təkləndim,
Dostlara səsləndim.
Gördüm hay verən yoxdu:
Səksəndim
Həyatın tən ortasında.
Bu boyda gen dünyalar
Kiçik-kiçik oldular.
Dostlar düşdü əlimdən
Çilik-çilik oldular
Büllur qab kimi.
Partlamış narlar kimi
Çiçək-çiçək oldular
qəlbimdə ağrılarım...

### QƏBİRİSTANDA DÜŞÜNCƏLƏR

Ah, bu da qəbiristan, salamlar sənə
Ey ana qucağı, ey ata yurdu...
Demək, min illərdi bunu deyillər -
Demək, son duracaq, son mənzil budu...

Hər məzar daşından sənə boylanan
İsti bir kədər var, soyuq bir diqqət...
Demək min illərdi bunu deyillər.
Mənə indi çatır adi həqiqət...

Danışır səninlə bu soyuq daşlar
Sanardım burada hər şey kirimiş...
Dünyanın ən böyük kəşfləri kimi
Həqiqət həmişə yaxında imiş.

Burada da rənglər var: bu məzar sarı,
Bu məzar yamyaşıl, busa qırmızı...
Demək min illərdi bunu deyillər,
Bunu anlamağa bu yol nə uzun...

Bu susqun dünyada hikmətlər yatır,
Burda da ömür var, burda da həyat...
...Bax o məzar daşı cadar-cadardı,
O biri başdaşı qurumur heç vaxt...

Hər şey yarımçıqmış bu yer üzündə -
Həyatda yarımçıq, ölüm də elə...
Uzun bir yoluymuş dünya özü də -
Bir kimsə sonacan getməyib hələ...

### BOŞLUQDAKI ÜMİD

Boş bilyard salonunda
gah ard-arda,
gah da tək-tək
tək oyunçunun vurduğu daşlar
necə səs çıxarırsa,
İçimin boşluqlarında
Eyni mənzərədi, qardaşlar...
Bu boşluqların pəncərəsindən
darıxan,
vurnuxan
kədərli səslər çırpınır
ətrafın laqeydliyinə,
Heçliyə,
puçluğa,
boşluğa,
tənhalığa,
ünvanlı səslər...
Labirintin divarlarına çırpınan,
alnının ortasında çapılan,
qanı axa-axa
sonsuzluğa sürünən
dumanlı səslər...
Ola bilsin
lap uzaqlarda,
lap elə içimin boşluqlarında
bir ildırım dirilsin,
fərq etməz,
o da dünyanın boşluğunda
vurnuxan səsdir -
Şimşəyi çaxsa da -
çaxmasa da,
yağış yağsa da -
yağmasa da...
demək hər şey əbəsdir
bütün səslər sonda
qəbiristanlıqların yolunu
soraqlayırsa;
Həyat, dərk ediləndə,
belə mənasız-mənasız
sarsaqlayırsa
Demək hər şey əbəsdir...
Yaşasın
uzaq məchulluqlardan
süzülən,
gah görünən,
gah üzülən
bir iynə ucu boyda işıq səsi
Və dünyanın məcnunluqlarından
doğulan uşaq
səsi...
Demək, nə dərd!
Bilyard daşlarının,
içimin boşluqlarının,
ildırım qardaşlarımın,
Darıxan bütün yaşıdlarımın
(darıxan hamısı eyni yaşdadı)
axtarmağa nəyisə var,
arxalanmağa nəyisə var!

### AXTARIŞ

Ədalət axtaran canım!
Bax, bu işin sonu pisdi...
Biri vardı, çox axtardı -
Axırda damarın kəsdi...
Ədalət axtaran canım!
Cavabı çıx bəd yazıldı
Biri axtara-axtara
Gedib kəndirdən asıldı...

O qapı ağır qapıdı,
Sanma yaxın bir astana...
Bir yolda var gedən üçün -
Sonu ruhi xəstəxana...

Ədalət axtaran canım!
Bu yol gedən-gəlməz yoldu...
Biri vardı, adı Tofiq
Yazıq gedib şair oldu...

### ÇIRPINA-ÇIRPINA

Onlar çağıranda
mən getdim bir vaxt,
Onlar gəlmədilər mən çağıranda...
İnsan içində bağıranda
səsi gözlərindən çıxır...
... Səsim gözlərimdən çıxdı,
Gözləməkdən gözlərim çıxdı,
Elə bir cırıldı paltarlarım -
Cırıqlardan dizlərim çıxdı,
Cırıqlardan dirsəyim çıxdı,
Gözlərimdən sözüm çıxdı
Çırpındım-çırpındım,
Çırpına-çırpına bir fırtına kimi
Öz içimdən özüm çıxdım.
Bu qədər ağrını, əzabı boğdum;
İçimdə min cürə qəzəbi boğdum;
Başımı isitmiş qəzəbi boğdum; -
Mən özüm özümü doğdum!
Yuxulu göylərdən endim,
Ruhumu göylərdən endirdim -
İlk dəfə yeri gördüm...

### DÜNYA

Qurğuşun əvvəlki çəkidə deyil,
Gor qonşun əvvəlki çəkidə deyil...
Yağışı əvvəlki çəkidə deyil,
İtirir əvvəlki dadını dünya.

Qəlblərdə əvvəlki mehr də yoxdur
Gecədə əvvəlki sehr də yoxdur.
Zamanda dözüm yox, səbr də yoxdur
İtirir əvvəlki dadını dünya.

Söz də yüngülləşib, köpük kimidir -
Dilənçi almayan qəpik kimidir.
Alqışlar biganə çəpik kimidir
İtirir əvvəlki dadını dünya.

Sevgi ocaqları alışmır daha -
İki çay qovuşur-qarışmır daha.
Dünyaya öz adı yaraşmır daha
İtirir əvvəlki dadını dünya.

Pas atıb ən iti sözün titrəsin...
Bir kitab sözüm var sənə deyəsi
Özünü tez yetir, ey yer yiyəsi -
İtirir əvvəlki dadını dünya.